# Görkəmli pedaqoqun xatirə gecəsi

***Dekabrın 23-də qayğıkeş müəllim, təvazökar və humanist insan Rövşən Şəfizadənin anadan olmasının 100 illiyinə həsr olunmuş xatirə gecəsi keçirilib.***

***Rövşən Gülməmməd oğlu Şəfizadə1917-ci il dekabrın 23-də Bakı şəhərində anadan olub və boya-başa çatıb.***

***O,1937-ci ildə Bakıda iki illik Müəllimlər İnistitutunu bitirərək keçmiş Xalq Maarif Komissarlığının göndərişi ilə Qəbələ (əvvəlki Qutqaşen) şəhərinin Nizami adına orta məktəbinə riyaziyyat müəllimi təyin olunub.***

***Rövşən Şəfizadə 1941-ci ildə Böyük Vətən müharibəsində iştirak etmək üçün ordu sıralarına çağırılıb, 1942-ci ildə ağır yaralanaraq ordu sıralarından tərxis olunub.***

***Həmin il Qazı-Məmməd şəhər məktəbinə direktor təyin edilib.***

***O, bir müddət orada müəllimlik etdikdən sonra 1944-cü ildə yenidən Qutqaşen rayonuna qayıdıb və ömrünün sonuna qədər Nizami adına şəhər orta məktəbində (indiki şəhər 1 nömrəli tam orta məktəbdə) müxtəlif vaxtlarda direktor və müəllim işləyib.***

***Rövşən Şəfizadə yaşadığı qısa ömür kəsiyində qəbələli gənclərin və yeniyetmələrin cəmiyyətə, həyata hazırlanması üçün böyük əmək sərf edib, müxtəlif sahələrdə çalışan və ölkə miqyasında tanınan görkəmli ziyalılar yetişdirib.***

***Onun xidmətləri Respublika Xalq Maarif Nazirliyi və rayon maarif şöbəsi tərəfindən qiymətləndirilib, müxtəlif diplom və Fəxri fərmanlarla təltif edilib. Görkəmli pedaqoq 1970-ci ildə 53 yaşında vəfat edib və Qəbələ şəhərində dəfn olunub.***

***Onun yetirmələri və onu tanıyanlar Rövşən Şəfizadənin xatirəsini həmişə dərin hörmətlə anır.***



Yubiley tədbiri Rövşən Şəfizadənin işlədiyi şəhər 1 nömrəli tam orta məktəbdə təşkil olunub.

Mərasimdə rayon icra hakimiyyətinin, təhsil şöbəsinin, idarə və müəssisələrin nümayəndələri, ziyalılar, şəhər ağsaqqallarının bir qrupu, pedaqoqun ailə üzvləri və media nümayəndələri iştirak ediblər.

Tədbir iştirakçıları əvvəlcə məktəbin foyesində Rövşən Şəfizadənin pedaqoji fəaliyyətini əks etdirən foto-sərgi ilə tanış olublar.

Tədbiri təqaüddə olan əməkdar müəllim Fərman Əzizli açıb. Mərasimdə rayonun təhsil tarixində adları unudulmaz pedaqoqlar sırasında çəkilən və dünyasını dəyişən bütün müəllimlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Fərman Əzizli unudulmaz insan Rövşən Şəfizadənin həyatı və pedaqoji fəaliyyəti haqqında ətraflı məlumat verib, bu nəcib insan haqqında xatirələrini danışıb.

Rayon icra hakimiyyəti başçısının müavini Ətayə Osmanova, şəhər 1 nömrəli tam orta məktəbin tədris işləri üzrə direktor müavini Dürdanə Zeynalova, 4 nömrəli tam orta məktəbin direktoru Qəşəngi Musayeva, təhsil şöbəsinin əməkdaşı Arifə Bayramova, Rövşən Şəfizadənin yaxın qohumları Səməd Səmədov, Mehparə Şəfizadə, yetirmələri iqtisadçı Zahid Kərimov, Şahsoltan Şəkərxanov, istefada olan polkovnik-leytenant Alı Məmmədov, filologiya üzrə fəlsəfə doktoru Fazil Əhmədov və digər çıxış edənlər bu vətənpərvər insanın müəlimlik fəaliyyətindən, Qəbələ təhsilinə verdiyi töhfələrdən, yüksək ictimai təşkilatçılıq keyfiyyətlərindən və gənc nəslə örnək olası xatirələrindən danışıblar.

Məktəblilərin hazırladığı ədəbi kompozisya məclisi daha da maraqlı edib.




Mərasimdə Rövşən Şəfizadənin fəaliyyətinə həsr olunan videoçarx və tədbirə gələ bilməyən dostlarının və şagirdlərinin canlı məktubları nümayiş etdirilib.

Qəbələ yazarlarından Səməd Səmədov, Cəlil Komradlı, Fəxrəddin Babayev, Həsənağa Kədərli qayğıkeş müəllimə ithaf etdikləri şeirlərini oxuyublar.

Sonda yubliyarın oğlu Əjdər Şəfizadə tədbir iştirakçılarına ailələri adından dərin minnətdarlığını bildirib.

Tədbir Vaqif Yaquboğlunun aparıcılıq etdiyi konsert proqamı ilə başa çatıb.

**"Qəbələ"**

# Məktəblər arasında rayon birinciliyi

Gənclər və idman idarəsinin təşkilatçılığı və “Gələcəyə Doğru” Gənclərin Sosial İnkişafına Dəstək İctimai Birliyinin dəstəyi ilə 28 dekabr 2017-ci il tarixdə Qəbələ şəhər 1 nömrəli tam orta məktəbdə 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi gününə həsr edilmiş “Nə, harda, nə vaxt?” intellektual oyunu üzrə məktəblər arasında rayon birinciliyi keçirilmişdir.

Tədbirin açılış mərasimində rayon gənclər və idman idarəsinin rəisi Fəxri Soltanov Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə məktəbliləri təbrik edərək onlara uğurlar arzulamışdır. Fəxri Soltanov cənab Prezident İlham Əliyevin gənc nəslə xüsusi diqqət yetirdiyindən, onlara hər bir sahədə göstərilən qayğıdan və respublikada dövlət gənclər siyasətinin uğurlu inkişafından danışmış, tədbirin məqsəd və vəzifələri haqqında məlumat vermişdir.

Rayon birinciliyində yaşı 14-dən 17-dək olan yeniyetmələr 10 komandada öz bilik-bacarıqlarını və intellektual səviyyələrini sınamışlar. Yarışın yekununda Zarağan kənd tam orta məktəbin komandası I yerə, Qəbələ şəhər 3 nömrəli tam orta məktəbin komandası II yerə və Vəndam qəsəbə 1 nömrəli tam orta məktəbin komandası III yerə çıxmışdır.

Qalib komandalara rayon gənclər və idman idarəsinin diplomları və xatirə hədiyyələri təqdim edilmişdir.

**Mübariz AĞAYEV,**
**gənclər və idman idarəsinin aparıcı məsləhətçisi.**

# Həmrəylik günü qeyd olunub

***31 Dekabr—Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü ilə əlaqədar Qəbələ Mərkəzləşmiş Kitabxana sisteminin mərkəzi kitabxanasında tədbir keçirilmişdir. Tədbirdə MKS-in əməkdaşları ilə yanaşı şəhər 5 nömrəli tam orta məktəbin yuxarı sinif şagirdləri və müəllimləri iştirak etmişlər.***



Tədbiri ümummilli lider Heydər Əliyevin «Düşünürəm ki, xaricdə yaşayan soydaşlarımız həmişə ümumbəşəri dəyərlərin və mütərəqqi milli ənənəlrimizin, dinimizin, mədəniyyətimizin daşıyıcısı olacaq» sözləri ilə açan MKS-in direktoru Anar Rüstəmli bildirib ki, 1989-cu il dekabr ayının 31-də xalq ayağa qalxaraq Azərbaycanın cənubunda, Naxçıvanda Sovet İttifaqı ilə İran İslam Respublikası arasındakı tikanlı məftilləri, sərhəd strukturlarını söküb. Anar Rüstəmli qeyd edib ki, bu hərəkət bir tərəfdən cənublu soydaşlarımızla birləşmək arzusu idisə, digər tərəfdən Ermənistanın Azərbaycana qarşı ərazi iddiasına, vəhşiliklərinə mərkəzi hakimiyyətinin biganə münasibətinə etiraz əlaməti idi. O, diqqətə çatdırıb ki, 1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev 31 dekabr gününü Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan edib. Naxçıvan MR-ın Ali Məclisi tərəfindən təsdiq olunan bu sənəd sonradan Azərbaycan hakimiyyəti tərəfindən də qəbul olunub. Ulu öndərin dünya azərbaycanlılarının həmrəyliyinə nail olmaq üçün çox iş gördüyünü diqqətə çatdıran Anar Rüstəmli 2001-ci ildə tarixdə ilk dəfə Bakıda dünya azərbaycanlılarının qurultayı keçirildiyini vurğulayıb. Natiq ulu öndərin dünya azərbaycanlılarının həmrəyliyini möhkəmlətmək ideyalarının Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini, bu gün xaricdə yaşayan azərbaycanlıların güclü diaspor təşkilatlarının fəaliyyət göstərdiyini deyib.

Tədbirdə MKS-in əməkdaşları Sədaqət Kərimova, Sevda İsrayılova, Vüsalə Yunusova, Qəbələ şəhər 5 nömrəli tam orta məktəbin müəllimləri Aynurə Xəlilova, Aytən Adıgözəlova, Vüsalə Həşimova və başqaları çıxış ediblər. Məktəblilər vətənpərvərliyə, yeni ilə aid şeirlər söyləyib, mahnılar oxuyublar.

Sonda məktəblilərə yeni il hədiyyələri verilib.

**Günel QARAYEVA,**
**MKS-nin əməkdaşı.**

# Təbrik edirik

«Qəbələ» qəzetinin müxbir postunun rəhbəri, Azərbaycan Kütləvi İnformasiya Vasitələri İşçiləri Həmkarlar İttifaqı Rəyasət Heyətinin 31 noyabr 2017-ci il tarixli qərarı ilə «Qızıl qələm» Media Mükafatı laureatı diplomu ilə təltif olunmuş Emin Baratoğlu (Ədilli) 1948-ci ildə Bum qəsəbəsində doğulmuşdur. 1970-ci ildə Ağdaş Pedaqoji Texnikumunu bitirmiş, ömrünün 44 ilini doğma qəsəbədə müəllimliyə həsr etmişdir.




Hələ uşaqlıq yaşından bədii sözə vurğun olan Emin müəllim bu gün 13 kitabın müəllifidir. Azərbaycan Yazıçılar və Azərbaycan Jurnalistlər birliklərinin üzvü olan Emin Baratoğlu 51 ildir «Qəbələ» qəzeti ilə əməkdaşlıq edir. Qəzetin səhifələrində vaxtaşırı olaraq Emin müəllimin gözəl şeirləri, məqalələri çap olunur.

Emin Baratoğlu Qəbələ yazarlarının şeir və hekayələrinin çap olunması, oxucu kütlələrinə çatdırılması sahəsində böyük iş, görür. Onun bilavasitə təşəbbüsü və təşkilatçılığı ilə çap olunmuş «Qəbələ - Könül dünyamız» almanaxında 57 nəfər qəbələli söz ustasının şeir və nəsr nümunələri toplanmışdır.

Emin Baratoğlu Qəbələ təhsilinin tarixindən bu gündən bəhs edən «Qəbələ təhsili zamanın axarında» adlı kitabla bərabər Qəbələdə, Bum qəsəbəsində doğub böyümüş, fəallıqları ilə cəmiyyətdə seçilən şəxslər haqqında da bir neçə kitabın müəllifidir.

Bir sözlə Emin müəllim «Qızıl Qələm» Mükafatı Laureatı diplomunu alın tərilə qazanıb.

Biz də qələm dostumuzu bu mükafat münasibətilə təbrik edirik.

**«Qəbələ» qəzeti redaksiyası.**

# Yeni guşə

***Tariximizi qoruyub saxlayan Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyi daim ekspozisiyasını genişləndirməkdədir. Əhalinin qədim əşyaları muzeyimizə verməsi ekspozisiyamızı daha da zənginləşdirir, ona cəlbedici və maraqlı görkəm verir, bura gələnlərin dünyagörüşünü artırır. Çünki muzeyə əşya kimi gələn hər nə varsa bu əvəzedilməz bir eksponat, tarixin bir parçası, daimi sərgilərin gözəl nümunəsidir.***

Bu günlərdə muzeyimizdə yeni bir güşə tamaşaçıların ixtiyarına verilib."İkinci Dünya Müharibəsi" bölməsində həmyerlimiz - 1923-cü ildə Qəbələ şəhərində anadan olmuş və bu yaxınlarda dünyasını dəyişmiş Nurəddin Ağabala oğlu Tağızadənin şəxsi əşyalarından və sənədlərindən ibarət daimi sərgi təşkil olunmuşdur. Sərgiyə keçirilən ilk baxış zamanı Nurəddin Tağızadənin xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir. Muzeyin direktoru Xalis Məmmədov İkinci Dünya Müharibəsi iştirakçısı, rayonumuzun ictimai həyatında fəal mövqe tutan, polis veteranı Nurəddin müəllim haqqında öz xatirələrini söyləyib.

Həmyerlimiz Nurəddin Tağızadənin Böyük Vətən Müharibəsi illərində keçdiyi ağır döyüş yolları barədə məlumatların, fotoşəkillərin, onun şəxsi əşyalarının, əldə etdiyi nailiyyətlərə görə aldığı mükafatların sərgiləndiyi güşə muzeyimizi ziyarət edən tamaşaçılarda böyük təəsürat yaradır.

**İlhamə SEYİDOVA,**
**muzeyin kiçik elmi işçisi.**